## Hikmət Hacıyev: COP29-un ev sahibi kimi uğurlar qazansaq, bu, bütün dünya üçün faydalı olar

Qarşımıza qoyduğumuz məqsədlərə nail olmağı hədəfləyirik. Biz bunun üçün bütün səyləri gücləndirmək niyyətindəyik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Laçında COP29-la əlaqədar keçirilən təqdimat mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Hikmət Hacıyev bildirib ki, yaşıl enerjinin müsbət cəhəti hər yerdə istehsal oluna bilməsi ilə bağlıdır. Lakin bunun üçün yatırımlara, innovasiyalara ehtiyac var. Buna isə yalnız tərəfdaşlıq və əməkdaşlıq sayəsində nail olmaq olar. Biz bu məqsədə bir-birimizi dəstəkləyərək nail ola bilərik. Əgər biz COP29-un ev sahibi kimi uğurlar qazansaq, bu, bütün dünya üçün faydalı olar.

**AZƏRTAC**
**2024, 24 may**